22 may - 4 iyun 2025-ci il №20/21

# "BU MAAŞLA HEÇ BİR ALİM AİLƏ DOLANDIRA BİLMƏZ"



***Azərbaycanın keçmiş təhsil naziri, Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov "AzPolitika"-ya geniş müsahibəsində elm və təhsil sahəsində mövcud problemlər, onlardan çıxış yolları, nazir işlədiyi dövrdə baş verən olaylar və hazırda çalışdığı sahədə qarşılaşdığı çətinliklər, eləcə də digər aktual mövzularla bağlı sualları cavablandırıb.***

**Müsahibənin birinci hissəsini oxucularımıza təqdim edirik:**

***- Misir müəllim, müsahibə üçün təşəkkür edirik. Əvvəlcə rəhbərlik etdiyiniz Riyaziyyat və Mexanika İnstitutu haqda sualımız var. Bu qurumun fəaliyyətində hansı yeniliklər və töhfələr olub?***

- Riyaziyyat və Mexanika İnstitutu Azərbaycan Milli Elmlər Akademiyası ilə yaşıddır desək, yanılmarıq. Ölkəmizdə müasir riyazi tədqiqatlarla məşğul olan ilk akademik riyaziyyat özəyi 1942-ci ilin aprel ayında SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Fizika sektorunda təşkil edilmişdi. 1940-cı ildə namizədlik dissertasiyası müdafiə edərək, Tiflisdən Bakıya gəlmiş Zahid Xəlilov onun yeganə riyaziyyatçı əməkdaşı olub. 1943-cü ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının nəzdində müstəqil Riyaziyyat sektorunun yaradılması ilə riyaziyyat sahəsində elmi tədqiqat işlərinin aparılması istiqamətində daha mütəşəkkil və məqsədyönlü tədqiqatlara başlanılıb. 1945-ci ilin oktyabr ayında Fizika və Riyaziyyat sektorlarının bazasında Fizika və Riyaziyyat İnstitutu yaradıldı. Bu instituta 1945-1950-ci illərdə Həbibulla Əmirxanov, 1950-1957-ci illərdə isə Zahid Xəlilov rəhbərlik edib. İnstitut 1959-cu ildə müstəqil qurum kimi fəaliyyətə başlayıb. Ölkəmizdə müasir riyaziyyat elminin əsası Zahid Xəlilov, İbrahim İbrahimov və Əşrəf Hüseynov tərəfindən qoyulub. Allah hər üçünə rəhmət eləsin. Bu sırada professor Maqsud Cavadovun adını da xüsusi qeyd etmək lazımdır. O, 1930-40-cı illərdə Azərbaycanın riyaziyyat elminin və təhsilinin əsasını qoyanlardan biridir. Universitetdə bizə dərs deyib, böyük alim, elm və təhsil təşkilatçısı, yüksək səviyyəli müəllim idi. Əşrəf Hüseynov isə biz tələbə olarkən Universitetin Mexanika-riyaziyyat fakültəsinin dekanı idi. Əşrəf Hüseynov və İbrahim İbrahimovun böyük sovet alimləri Keldış, Bernşteyn, Kolmoqorov, Tixonov və başqaları ilə sıx əlaqələri var idi. Zahid Xəlilov elmi fəaliyyətinə Gürcüstanda başlayıb və orada akademik Musxelişvilinin rəhbərliyi ilə elmi tədqiqatlara başlayıb. Sonradan Bakıya gəlib Universitetdə kafedra müdiri vəzifəsində işləmişdi.

***- Sizin rəhbərliyiniz dövründə İnstitutun fəaliyyətində hansı yeniliklər olub?***

- 2013-cü ilin bir may tarixindən instituta rəhbərlik edirəm. Artıq 12 il keçir. Ondan əvvəl 15 il təhsil naziri olmuşam, daha əvvəl isə nazir müavini, Universitetin rektoru və prorektoru vəzifələrində çalışmışam. Bu vəzifələr insanın ciddi elmi tədqiqatla məşğul olmasına xeyli mane olur. Amma həmin dövrdə vaxtaşırı elmi məqalələrim, kitablarım dərc olunub. Yeni iş yerinə uyğunlaşmaq o qədər də çətin olmadı. Ona görə ki, burada çalışanların əksəriyyətini əvvəldən tanıyırdım, bəziləri mənim tələbələrim, bəziləri isə müəllim yoldaşlarım idi. Onu da qeyd edim ki, müstəqilliyin ilk illərində digər müəssisələrdə olduğu kimi, burada da institut əməkdaşlarının iş intizamı pozulmuşdu. Bu baxımdan onların vaxtlı-vaxtında işə gəlmələri və verilən tapşırıqlara məsuliyyətlə yanaşmaları istiqamətində müəyyən addımlar atdıq. Açığını deyim ki, ilk aylarda institut əməkdaşlarının bəziləri mənim hər gün səhər tezdən işə gəlib və axşama qədər işdə oturmağıma qəribə baxırdılar, çünki belə rejimdə işləməyə alışmamışdılar. Amma mən hesab edirəm ki, dövlət məni bu vəzifəyə təyin edibsə, bu işə məsuliyyətlə yanaşmalıyam.

İlk addımlarımdan biri institutda çap olunan jurnallarla bağlı oldu. Mən gələndə institutda üç jurnal nəşr olunurdu - "Elmi Əsərlər", "Azərbaycan Riyaziyyat Jurnalı", Azərbaycan Elmlər Akademiyasının Fizika-Texnika və Riyaziyyat elmləri seriyasının "Xəbərlər" jurnalları. Hər üçünün baş redaktoru bir nəfər idi. Qısa müddətdən sonra İnstitutun "Elmi Əsərlər" jurnalının baş redaktoru özüm oldum, digər jurnallara isə yeni redaktorlar təyin etdim. Sonra məlum oldu ki, bu jurnallara təqdim olunan məqalələr mütəxəssis tərəfindən elmi resenziyadan keçirilmədən dərc olunurmuş. Vaxtımı çox alsa da, nüfuzlu elmi jurnalların hazırlanması qaydaları ilə yaxından tanış oldum. Məlum oldu ki, jurnala təqdim olunan hər bir məqaləyə ən azı iki mütəxəssis tərəfindən rəy verilməli, sonra isə redaksiya heyətində müzakirə olunaraq nəşr edilməlidir. Biz bu prosesi sistemli şəkildə tətbiq etməyə başladıq. Nəticədə, bir neçə il keçdikdən sonra hər üç jurnal "Scopus" kimi nüfuzlu beynəlxalq elmmetrik bazaya daxil oldu. Bu, bizim ilk ciddi uğurumuz idi. Müəyyən müddətdən sonra həmin jurnalların ikisi daha yüksək elmmetrik bazaya – Web of science bazasına daxil oldu.

Diqqət yetirdiyim ikinci sahə institutun nəzdində fəaliyyət göstərən dissertasiya şurası ilə bağlı oldu. Burada çox ciddi problemlərlə qarşılaşdım. Əsas problem ondan ibarət idi ki, elmi rəhbərlər, dissertasiya işlərinə rəy yazanlar və hətta rəsmi opponentlər bu vacib məsələyə məsuliyyətsiz yanaşırdılar. Əsas çətinlik ondan ibarət idi ki, insanlar bir-birini tanıyır və əsassız güzəştlər, "yaxşılıq" etmək istəyirdilər. Nəticədə sədri olduğum müdafiə şurasından keçən işlərin içərisindən bir neçəsi Ali Atestasiya Komissiyası (AAK) tərəfindən geri qaytarılırdı. Müəyyən müddət keçəndən sonra qərara gəldim ki, müdafiəyə təqdim olunmuş hər bir işi gizli rəyə göndərim. Gizli rəydən müsbət cavab aldıqdan sonra digər prosedurları davam etdirim. Son bir ildə müdafiə üçün altı iş təqdim olunub, onların hər birinə mənfi rəy gəldiyinə görə müdafiə prosesi dayandırıldı. Bu sahədə çətinliklərdən biri də rəyçilərə ödəniş edilməməsi və obyektiv rəyçilərin az olması ilə bağlıdır.

***- Bu, obyektiv yanaşmadır?***

- Bəli, düşünürəm ki, indiki halda bu, ən obyektiv yanaşmadır. Riyaziyyat üzrə dissertasiya müdafiə edənlərin sayına heç vaxt plan qoyulmayıb. Hesab edirəm ki, hər hansı bir elm sahəsində elmlər doktoru və ya elmlər namizədi olmaq üçün bu sahənin alimləri səni yaxşı tanımalı və qəbul etməlidir. Burada tələsikliyə yol vermək olmaz. Nə qədər ki, bu şuranın sədriyəm sözümün arxasındayam. Bu problemlərlə əlaqədar xahiş edənlər, təsir göstərmək istəyənlər də olur. Ancaq mən demişəm rəy müsbət gəlsə, buyursun, müdafiə etsin. Üçüncü əsas işimiz elmi seminarlarla bağlıdır. İnstitutda ənənəvi olaraq hər həftənin üçüncü günü Ümuminstitut elmi seminarı keçirilir. Bu seminarlarda ölkənin tanınmış alimləri ilə yanaşı, xaricdə yaşayan alimlər elmi məruzələr edirlər.

Dördüncü vacib işlərdən biri riyaziyyat və mexanika sahəsində elmi məqalələrin necə hazırlanması və onların nüfuzlu jurnallarda çap olunmasıdır. Son illərdə bu istiqamətdə qazanılmış uğurlar çoxdur.

***- Hazırda institutda neçə nəfər əməkdaş çalışır?***

- Hazırda institutda 180 nəfər çalışır, onlardan 117 nəfəri elmi işçi, qalanları isə köməkçi heyətə daxildirlər.

***- Əməkdaşların əməkhaqları qaneedici səviyyədədirmi?***

- Əməkhaqqı məsələsi ən ciddi problemdir. Məsələn, mənim aylıq əmək haqqım 1370 manatdır, digərlərinin əmək haqqı 600-900 manatdır. Professorların maaşı 1000 manata yaxındır. Aydındır ki, bu maaşla heç bir alim ailə dolandıra bilməz, ona görə də onlara qanunvericiliyin tələbinə uyğun olaraq digər müəssisələrdə yarım ştat işləməyə imkan verilir.

Onu da qeyd edim ki, son bir ildə Elm və Təhsil Nazirliyi çox vacib və müsbət bir qərar qəbul edib. Nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunan məqalələrə görə alimlərə aylıq mükafatlar verilir. A, B, C kateqoriyalı sistem formalaşıb. A qrupuna düşən alimə ayda 1300 manat, B qrupuna görə 1000 manat, C qrupuna görə isə 650 manat əlavə ödəniş edilir. Təbii ki, bu məqalələr nüfuzlu bazalarda yer alan jurnallarda çap olunmalıdır. Bu sahədə institutumuz ilk sıralardadır. Məsələn, son aylarda 30-dan çox əməkdaş bu mükafata layiq görülüb. Nazirliyin bu addımı elmə olan marağı artırıb və alimlərimizin nüfuzlu elmmetrik bazalara daxil olan jurnallarda çap olunmuş məqalələrinin sayı xeyli artıb.

***- Elm və Təhsil Nazirliyinin tabeliyinə keçdikdən sonra İnstitutda keyfiyyət baxımından hansı dəyişikliklər olub?***

- Elm və Təhsil Nazirliyinin tabeliyinə keçdikdən sonra açığı, keyfiyyət baxımından yuxarıda dediyimdən başqa həlledici ciddi bir dəyişiklik olmayıb. Cənab Prezident optimallaşdırma ilə bağlı sərəncam imzalamışdı. Həmin qərara əsasən Riyaziyyat və Mexanika İnstitutu ilə İdarəetmə Sistemləri İnstitutunun bazasında yeni Riyaziyyat institutu yaradılmalıdır. Bundan sonra Nazirlər Kabinetinin sərəncamı oldu və bu sərəncamın icrası ilə bağlı qərar gözlənilir. Hazırda həmin gözləmə mövqeyindədir.

***- Sizcə, elmə ayrılan büdcə niyə azdır?***

- Bu suala cavab vermək çox çətindir.

***- Nazir Emin Əmrullayev bu günlərdə deyib ki, indiki problemlər 20 il əvvəl yol verilən nöqsanlarla bağlıdır. Söhbət elm və təhsildəki hansı nöqsanlardan gedir?*** Nazir 20 il əvvəlki neqativ hallar deyərkən, layiq olmayan şəxslərin elm, təhsil sahəsinə gətirilməsini, diplomların rüşvətlə verilməsini nəzərdə tutur...

- Emin Əmrullayevin "indiki problemlərin səbəbi 20 il əvvəl yol verilən nöqsanlardır" fikri ilə bağlı sualınıza gəlincə, qeyd etmək istəyirəm ki, bu məsələni nazirlə müzakirə etmişik. Dediyinə görə, jurnalistlər onun fikrini təhrif ediblər. 20 il əvvəl ölkəmizdə bütün sahələrdə, o cümlədən təhsil sahəsində də çox ciddi problemlər var idi. Azərbaycanda 50-dən çox özəl universitet var idi. O zaman ümummilli lider məni nazir təyin edəndə demişdi ki, bu sahədə nizam-intizam yaratmaq lazımdır. Mənə qədər həmin universitetlər artıq fəaliyyətə başlamışdılar, onlara lisenziya verilmişdi. Amma mənim nazirliyim dövründə onların sayı 12-yə endirildi. Bu, çox çətin idi. Çünki hər birinin arxasında nüfuzlu və imkanlı şəxslər dayanırdı. Onlara qarşı mübarizə aparmaq asan deyildi, amma biz bu sayı minimuma endirə bildik. Həmin universitetləri bitirənlərin diplomlarının qanunsuz olması ilə bağlı konkret qərar yox idi. Biz qərara gəldik ki, diplom yalnız TQDK-nın yolu ilə qəbul olunan tələbəyə verilsin. O vaxtlar bəzi universitetlər özləri imtahansız tələbə qəbul edirdilər. Eyni zamanda, o dövrdə Qərbi Azərbaycandan təxminən 300 min insan köç etmişdi. Onların içində müəllim də vardı, şagird də. Onların yerləşdirilməsi məsələsi asan deyildi. Həmçinin, Qarabağdan da 700 minə yaxın insan məcburi köçkün düşmüşdü.

Hesab edirəm ki, bu gün yaranmış imkanlardan səmərəli istifadə etməli, problemlərin həlli üzərində dayanmalıyıq. Yoxsa keçmişə dönüb, kiminsə günahını axtarmaqla heç nəyə nail olmaq olmaz.

**(ardı var)**

**E.Rüstəmli,**
**E.Bəymənmədli**
**Mənbə: AzPolitika.info**

# Azərbaycan neft və qaz ixracından gəlirini artırıb



2025-ci ilin ilk 4 ayı ərzində Azərbaycanın neft-qaz sektoruna daxil olan mallar üzrə ixracının məbləği 7 milyard 716 milyon 70 min dollar təşkil edib.

Bu barədə Marja.az Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir.

2024-cü ilin ilk 4 ayı ərzində Azərbaycanın neft-qaz sektoruna daxil olan mallar üzrə ixracının məbləği 7 milyard 248 milyon 578 min dollar təşkil etmişdi.

2024-cü ilin 4 ayı ərzində xam neft ixracının məbləği 4 milyard 364 milyon 590 min dollar, təbii qaz ixracının məbləği 2 milyard 758 milyon 783 min dollar ikən, 2025-ci ilin eyni dövründə xam neft ixracının məbləği 4 milyard 562 milyon 682 min dollar, təbii qaz ixracının məbləği isə 3 milyard 65 milyon 562 min dollar təşkil edib.

Qeyd edək ki, 2025-ci ilin ilk 4 ayında neft və qazdan gəlirlərin artması ixrac miqdarının artırılması ilə bağlıdır. Belə ki, ixrac olunmuş xam neftin miqdarı 2024-cü ilin ilk 4 ayında 6 milyon 928 min 456 ton ikən, 2025-ci ilin ilk 4 ayında 8 milyon 203 min 845 ton təşkil edib. Təbii qaz ixracının miqdarı isə 7 milyard 706 milyon 861 min kub metrdən 8 milyard 160 milyon 30 min kub metrə yüksəlib.

# Avropa İttifaqı 2025-ci il üçün iqtisadi artım proqnozlarını azaldıb

ABŞ ilə ticarət gərginliyindən sonra Avropa İttifaqı (Aİ) Komissiyası Avrozonada bu il iqtisadi artım proqnozunu 1,3 faizdən 0,9 faizə, gələn il üçün isə 1,6 faizdən 1,4 faizə endirib.

Avropa İttifaqı (Aİ) Komissiyası "Avropanın İqtisadi Proqnozları - 2025-ci il, Yaz" hesabatını dərc edib.

"Qlobal iqtisadi qeyri-müəyyənlik şəraitində orta artım" başlıqlı hesabatda Avropa İttifaqı (Aİ) iqtisadiyyatının 2025-ci ilə gözlənildiyindən daha güclü əsaslarla başladığı, bu il artımın orta səviyyədə davam edəcəyi, qlobal siyasətdə qeyri-müəyyənlik və ticarət gərginliyinin artmasına baxmayaraq, artımın davam etməsinin gözlənildiyi qeyd edilib.

Hesabatda Aİ iqtisadiyyatının 2025-ci ildə 1,1 faiz, 2026-cı ildə 1,5 faiz, Avrozona iqtisadiyyatının isə 2025-ci ildə 0,9 faiz, 2026-cı ildə isə 1,4 faiz artacağı proqnozlaşdırılıb.

Aİ Komissiyasının əvvəlki "payız" hesabatında Aİ-nin 2025-ci ildə 1,5 faiz, 2026-cı ildə 1,8 faiz, Avrozonada isə 2025-ci ildə 1,3 faiz, 2026-cı ildə isə 1,6 faiz artacağı təxmin edilirdi.

Son hesabatla Aİ-nin 2025 və 2026-cı illər üçün artım proqnozları aşağıya doğru yenidən nəzərdən keçirilib. Avrozonanın artım proqnozu da 2025-ci il üçün 0,4 faiz, 2026-cı il üçün isə 0,2 faiz bəndi aşağı salınıb.

***"Artım proqnozları əhəmiyyətli dərəcədə aşağıya doğru yenidən nəzərdən keçirilib. Bu, qlobal ticarətin zəifləməsi və ticarət siyasəti ətrafında yüksək qeyri-müəyyənlik ilə bağlıdır"***, - hesabatda deyilir.

Hesabatda Avstriya iqtisadiyyatının bu il 0,3 faiz kiçiləcəyi, Almaniya iqtisadiyyatının artmayacağı, Fransanın 0,6 faiz, İtaliyanın 0,7 faiz, İspaniyanın isə 2,6 faiz artacağı proqnozlaşdırılır. Gələn il Almaniyanın 1,1 faiz, Fransanın 1,3 faiz, İtaliyanın 0,9 faiz, İspaniyanın isə 2 faiz artacağı proqnozlaşdırılır.

Hesabatda bu il AB-də inflyasiyanın 2,3 faiz, Avro Bölgəsində isə 2,1 faiz olacağı, 2026-cı ildə isə inflyasiyanın Aİ-də 1,9 faiz, Avro Bölgəsində isə 1,7 faiz olacağı təxmin edilib.

Dünyanın ABŞ-nin ticarət siyasətindəki proteksionist dəyişikliyə hazır olmadığı qeyd edilən hesabatda, 2 apreldə açıqlanan tarif artımlarının qlobal iqtisadiyyatda şok dalğalarına səbəb olduğuna diqqət çəkilib.